**ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa) və Endryu Şofer (ABŞ) bugünlərdə yenidən bəyanatla çıxış ediblər və guya, bölgəyə işgüzar səfərlərə gəlməyə hazır olduqlarını bildiriblər. Əslində, onlar bu bəyanatla hələ də "yaşadıqlarını" sübut etmək istəyirlər. Onu da qeyd edək ki, həm Azərbaycan, həm də dünya ictimaiyyəti artıq 30 ilə yaxındır ki, bu qurumun münaqişənin həllinə aidiyyatı olmayan, "köhnə bayatılar"dan ibarət belə bəyanatlarına vərdiş edib. İşğalçını öz adı ilə çağırmağa cürət etməyən, əksinə, müxtəlif vasitələrlə onları qonşu dövlətin üstünə qısqırdan, günahsız insanların qətlə yetirilməsinə, cəbhəboyu ərazilərdən xeyli kənarda yerləşən yaşayış məntəqələrinin viran edilməsinə şərait yaradan ATƏT-in Minsk qrupu yenidən bəyanat verməklə bu qurumu gülüş hədəfinə çevirib.**

***BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü öz imkanlarından, potensialından istifadə edə bilmədi ki, ermənilər çıxmağa məcbur olsun. Hətta, bəzi ərazilərdən çıxara bilmədi. Onlar bacarmadı, yoxsa istəmədi? Bu, açıq sual olaraq qalır. Lakin hazırda, bu, artıq fərq etmir. Münaqişə həll olunub. Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# ATƏT-in Minsk qrupu hələ də "yaşadığını" sübut etmək istəyir




## *Vasitəçi, yoxsa işğalçıya arxa-dayaq?*

ATƏT-in 1995- ci ildən bu günə kimi Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçilik missiyasına nəzər yetirdikdə bir daha aydın olur ki, bu qurumun əsas fəaliyyəti işğalçı ölkəyə bütün vasitələrlə himayədarlıq etmək, onların törətdikləri vandalizmi, beynəlxalq hüquq norma və prinsiplərini pərdələməkdən ibarət olub. Prezident İlham Əliyev də çıxışlarına bu qurumu vasitəçlik missiyasında öz vəzifəsini lazımınca yerinə yetirməməkdə ittiham edib. Dövlətimizin başçısı təəssüf hissi ilə bildirib ki, ATƏT-in Minsk qrupu bu vaxta qədər Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir rol oynamayıb. Halbuki, bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Bu müddət ərzində Minsk qrupu dünyada mövcud olan ikili standartlardan və islamofobiyadan, tərəfkeşlikdən, ayrı-seçkilikdən əl çəkə bilmədi. Ermənistanın terrorçu ordusu sərhədboyu ərazilərdə təxribatlar törədəndə, hər bir millətə, xalqa xas olan müqəddəs ibadətgahları dağıdanda, təhqir edəndə, tarixi-mədəni abidələri, qəbiristanlıqları yerlə-yeksan edəndə, Füzuli rayonunun Qaraxanbəyli kəndində nənə ilə nəvəni ağır artilleriya atəşi ilə qətlə yetirəndə, günahsız uşaqları müxtəlif yollarla, hiyləgərliklə, vəhşicəsnə öldürəndə ATƏT-in Minsk qrupu susdu, bütün bunları görməzliyə vurdu.

Münaqişənin dinc vasitələrlə nizama salınması Prezident İlham Əliyevin siyasi kursunda prioritet təşkil edib. Dövlətimizin başçısı çıxışlarında dünya birliyinin bu məsələyə biganə qaldığını vurğulayaraq qeyd edib ki, beynəlxalq təşkilatlar lazım olan qərarları qəbul etsə də, onlar icra olunmur və belə olan halda, o qətnamələr mənasını itirir.

Münaqişənin nizamlanması istiqamətində vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun sonuncu təklifindən 10 ildən çox keçməsinə baxmayaraq, qurum indiyədək heç bir yeni təkliflə çıxış etməmişdir. Buna baxmayaraq, Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq, onun işində müntəzəm və əməli şəkildə iştirak edirdi. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən dövr ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə 50-dən çox görüş keçirmişdir ki, bu da münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlarda ölkəmizin, ilk növbədə, sülh variantına üstünlük verdiyinə sübutdur.

Minsk qrupu bu müddət ərzində qondarma Dağlıq Qarabağ respublikasında keçirilmiş saxta seçkilərə münasibət bildirmədi. Şuşada keçirilən andiçmə mərasimindən "xəbərsiz" oldu. Ermənistanın baş naziri sərxoş vəziyyətdə Şuşada təlxəklik edəndə heç bir reaksiya verəmdi.

Çox təəssüf ki, yarandığı vaxtdan etibarən ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, indiyə qədər bu qurumun fəaliyyəti sülh prosesində arzu olunan nəticəni vermədi və münaqişənin beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində həllinə çəhd etmədi. ATƏT çərçivəsində yaradılan Minsk qrupu və bu qrupa həmsədrlik edən dövlətlər münaqişənin dondurulmuş şəkildə qalmasında məsuliyyət daşımamış və təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmamışlar. Onların dolayısı ilə işğalçıya himayədarlıq etmələri getdikcə acı nəticələrini göstərmiş və nəhayət, müharibə həddinə çatdırmışdır. Təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in Minsk qrupunun nüfuzuna xələl gətirməklə bərabər, bu quruma olan ümidləri də heçə endirdi.

## *Minsk qrupu Azərbaycanın tarixi qələbəsindən dərhal sonra zühur etdi*

İşğalçı Ermənistanın ötən il sentyabrın 27-də başladığı müharibə cəmi 44 gün çəkdi. Bu müddət ərzində müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu işğalçı ölkənin quldur silahlı qüvvələrinə necə zərbə endirdisə, onlar silah-sursatlarını atıb qaçdılar. Yeri gəlmişkən, bu günlərdə Bakıda keçmiş Nobel prospekti, indiki 8 Noyabr prospektində açılmış Hərbi Qənimətlər Parkında da düşməndən qənimət kimi götürülmüş silah-sursatlar, 2 mindən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə nümayiş etdirilmişdir. Bu, həm Ermənistana, həm də onun havadarlarına göz dağı olmuşdur. Görünür, bu məğlubiyyət ATƏT-in Minsk qrupu həmsədrlərini də məyus etmişdir. Belə olmasaydı, Azərbaycanın tarixi qələbəsi və Emənistanın acınacaqlı məğlubiyyətindən sonra onlar çağırılmamış qonaq kimi yenidən bölgədə peyda olmazdılar.

Dövlətimizin başçısı liderə xas olan diplomatik gediş nümayiş etdirərək, "çağırılmamış qonaqları" qəbul etdi və onlara bildirdi ki, buraya gəlmək sizin ideyanız idi. Bunu bir daha kameralar qarşısında deyə bilərəm. Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat veriləndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var. Əgər siz bunu kamera qarşısında söyləmək istəyirsinizsə, buyurun. Əgər istəmirsinizsə, mən onlara deyim getsinlər. Necə istəsəniz. Buyurun, sizi dinləyirəm".

Dövlətimizin başçısı Minsk qrupu həmsədrlərinin diqqətinə çatdırdı ki, Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox!

Möhtərəm Prezidentimiz bir daha qurumun nümayəndələrinin diqqətinə çatdırdı ki, biz planlaşdırdığımıza nail olduq: "Biz işğal olunmuş bütün yeddi rayonumuzu qaytardıq. Biz qədim Azərbaycan şəhəri Şuşanı qaytardıq. Biz Hadrut qəsəbəsini qaytardıq. Xocavəndin bir hissəsini qaytardıq. Suqovuşanı və digərlərini qaytardıq. Əslində, planlaşdırdığımıza nail olduq".

Ölkəmizin başçısı həmin görüşdə Minsk qrupunun həmsədrlərinin işğal olunmuş ərazilərə dəfələrlə səfər etdiyini xatırlatdı və Ermənistan rejiminin hərbi cinayətlərinin şahidi olduqlarını diqqətə çatdırdı.

"BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, bu qədər illər ərzində münaqişə niyə həll olunmurdu? BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü öz imkanlarından, potensialından istifadə edə bilmədi ki, ermənilər çıxmağa məcbur olsun. Hətta, bəzi ərazilərdən çıxara bilmədi. Onlar bacarmadı, yoxsa istəmədi? Bu, açıq sual olaraq qalır. Lakin hazırda bu, artıq fərq etmir. Münaqişə həll olunub. Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi. Tez-tez sizdən və rəhbərlərinizdən, eləcə də yüksək rütbəli rəsmilərinizdən eşidirdim ki, münaqişənin hərbi həlli yoxdur. Mən isə deyirdim: Var! Tarix göstərdi ki, mən haqlı idim. Var idi! Fikrimcə, "hərbi variant yoxdur" deyənlərin indi özləri anlayır ki, var idi, çünki onlar, sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər."

Dövlət başçımızın səsləndirdiyi faktlar qarşısında aciz qalan Minsk qrupunun həmsədrləri söz tapa bilmədilər.

## *Ermənistanın cinayətlərinə beynəlxalq qurumların susqunluğu*

Müharibənin öz qanunları var. Dinc əhaliyə, xüsusilə uşaqlara qarşı amansızlıq edilmir, yaşayış məntəqələri bilərəkdən dağıdılmır və s. Ancaq Ermənistanın sentyabrın 27-də Azərbaycana qarşı başladığı müharibədə əsas hədəf dinc əhali və sərhədboyu ərazilərdən xeyli kənarda yerləşən yaşayış məntəqələri, habelə strateji əhəmiyyətli obyektlər olub. Prezident İlham Əliyevin iştirakı ilə ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəxalq konfransda da bu barədə geniş müzakirələr aparıldı. Məsələn, Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru Xalid Teymur Əkrəmin dövlət başçımıza ünvanladığı sual bu baxımdan diqqəti cəlb edir: "Azərbaycan Ordusu 44 günlük müharibə zamanı yalnız öz ərazisində savaşaraq işğal olunmuş ərazilərdə Ermənistanın hərbi mövqelərini və hərbi texnikasını hədəfə alırdı. Azərbaycan Ermənistanın mütəmadi olaraq törətdiyi müharibə cinayətləri ilə də üzləşmişdi. Ermənistan 44 günlük müharibədə qəsdən əhalinin sıx yaşadığı yerləri və Azərbaycanın mülki vətəndaşlarını hədəfə alırdı. Biz Gəncə, Tərtər, Bərdə və digər şəhərlərə atılmış ballistik raketləri xatırlayırıq. Bu yaxınlarda biz mediada "İsgəndər-M" ballistik raketlərinin qanadlarını gördük. Bu raket Şuşada tapılmışdı və Ermənistan tərəfindən atılmışdı. Bundan əvvəl Ermənistanın baş naziri tərəfindən qeyd olunmuşdu ki, Ermənistan müharibə zamanı "İsgəndər-M" raketini Azərbaycana atmışdır. Bu ballistik raket çox təhlükəlidir və o, həmçinin nüvə başlığı da daşıya bilər. Bununla bağlı Sizin fikriniz nədir və bu əməl görə beynəlxalq birlik nə tədbir görməlidir?"

Dövlətimizin başçısı Ermənistanın müharibə cinayətləri barədə sualı cavablandırarkən dedi ki, işğalçı ölkə Birinci Qarabağ savaşı zamanı da müharibə cinayətlərini törədib. Onlar günahsız insanları qətlə yetirir, yandırırdılar. Bir çox hallrda kəndlər də erməni barbarlığının qurbanı olmuşdur: " İkinci Qarabağ müharibəsi zamanı, sizin də dediyiniz kimi, onların bizim şəhər və kəndləri necə bombalaması beynəlxalq birliyin gözü önündə idi. Təkcə ballistik raketlərlə deyil, onlar bizi artilleriya və minaatanlarla hər gün bombalayırdı. Kiçik Tərtər şəhərinə 16 min bomba atılmışdır. Onlar, hətta, dəfn mərasimini bombalayaraq bir ailəni qətlə yetirmişdir. Onlar Bərdəni, Naftalanı bombalayırdılar. Naftalanda onlar beş nəfərdən ibarət ailəni öldürmüşdülər. Onlar qəsdən bizim şəhər və kəndlərimizə hücum edir və düşünürdülər ki, bunu etməklə bizi dayandıracaqlar. Biz eynisini etmədik. Biz heç vaxt heç bir kənd və ya şəhərə zərbə endirməmişik. Biz yalnız Xankəndidə yerləşən hərbi obyektlərə zərbələr endirirdik, çünki bunlar hərbi obyektlər idi. Gecə vaxtı Gəncə şəhərinə qarşı ballistik raketdən istifadə onların barbarlığını açıq-aydın nümayiş etdirirdi. Çünki bu ballistik raketin hədəfi var idi. Onun yaşayış yerinə düşməsi təsadüf deyil. Bu, insanların gecə yatdığı vaxt həyata keçirilən hədəfə alınmış hücum idi və bu, bir dəfə yox, bir neçə dəfə baş vermişdir."

Həmin konfransda Kiyev – Mohyla Akademiyasının Milli Universitetinin professoru Taras Kuzionun dövlətimizin başçısına ünvanladığı sual da maraq doğurdu. O bildirdi ki, ötən ilin noyabrında Fransa parlamentinin hər iki palatası Dağlıq Qarabağın müstəqilliyinin lehinə səs vermişdi. Odur ki, Fransa Azərbaycan məsələsində separatizmi dəstəkləyir.

Təəccüblüdür ki, bu günlərdə isə ATƏT-in Minsk qrupunun yaydığı "bölgəyə işgüzar səfərləri bərpa etməyə hazır olduqları" bildirilən bəyanatını fransalı həmsədr də imzalayıb. Bu bəyanatı imzalayan Rusiya nümayəndəsi bilmirmi ki, bu gün bölgədə təhlükəsizliyi təmin edən Rusiya sülhməramlılarıdır? Görünür Minsk qrupunun həmsədrləri dünyada baş verən proseslərdən xəbərsizdirlər. Dövlətimizin başçısının konfransda dediyi kimi, münaqişə öz həllini tapdıqd an sonra münaqişənin həlinə kömək etməli olan qrupun fəaliyyətinə yer varmı?

Minsk qrupu son bəyanatı ilə hələ də "yaşadığını" sübut etmək istəyir. Ancaq bu qrup ötən il noyabrın 10-dan sonra Azərbaycan ictimaiyyəti üçün yoxdur.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***